**"Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nın təsdiq edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları" təsdiq edilsin (əlavə olunur).
2. "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxsləri üçün xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsviri və onların təchizat normasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 75 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №4, maddə 284; 2003, №3, maddə 169; 2009, №2, maddə 146; 2010, №1, maddə 55, №10, maddə 907) ləğv edilsin.
3. Bu qərar 2013-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

**Bakı şəhəri, 26 sentyabr 2012-ci il**
**№ 214**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2012-ci il 26 sentyabr tarixli
214 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

## Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat

## NORMALARI

| Sıra №-si | Əşyaların adı | Bir nəfər üçün miqdarı | İstifadə müddəti |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **1. Ali rəis heyəti üçün** | | | |
| 1.1. [1] | Qaragül xəzindən boz rəngli papaq | 1 ədəd | 4 il |
| 1.2. | Tünd-mavi rəngli furajka | 1 ədəd | 2 il |
| 1.3. | Ağ rəngli furajka | 1 ədəd | 1,5 il |
| 1.4. | Qadınlar üçün qalın parçadan tünd-mavi rəngli şlyapa | 1 ədəd | 1,5 il |
| 1.5. | Qadınlar üçün nazik parçadan tünd-mavi rəngli şlyapa | 1 ədəd | 1,5 il |
| 1.6. | Qadınlar üçün ağ rəngli şlyapa | 1 ədəd | 1,5 il |
| 1.7. [2] | Boz rəngli istiləşdirilmiş gödəkcə | 1 ədəd | 5 il |
| 1.8. | Boz rəngli palto | 1 ədəd | 4 il |
| 1.9. | Boz rəngli plaş | 1 ədəd | 5 il |
| 1.10. | Tünd-mavi rəngli demisezon gödəkcə və şalvar | 1 dəst | 2 il |
| 1.11. | Qadınlar üçün tünd-mavi rəngli demisezon gödəkcə və yubka | 1 dəst | 2 il |
| 1.12. | Tünd-mavi rəngli kitel və şalvar | 1 dəst | 2 il |
| 1.13. | Qadınlar üçün tünd-mavi rəngli kitel və yubka | 1 dəst | 2 il |
| 1.14. | Ağ rəngli kitel və qara rəngli şalvar | 1 dəst | 2 il |
| 1.15. | Qadınlar üçün ağ rəngli kitel və qara rəngli yubka | 1 dəst | 2 il |
| 1.16. | Göy rəngli pulover | 1 ədəd | 3 il |
| 1.17. | Ağ rəngli uzunqol köynək | 2 ədəd | 2 il |
| 1.18. | Ağ rəngli qısaqol köynək | 2 ədəd | 1 il |
| 1.19. | Tünd-mavi rəngli yay şalvarı | 1 ədəd | 2 il |
| 1.20. | Qadınlar üçün tünd-mavi rəngli yay yubkası | 1 ədəd | 2 il |
| 1.21. | Göy rəngli qalstuk | 1 ədəd | 1 il |
| 1.22. | Qara rəngli qalstuk | 1 ədəd | 1 il |
| 1.23. | Tünd-göy rəngli trikotaj şərf | 1 ədəd | 2 il |
| 1.24. | Ağ rəngli trikotaj şərf | 1 ədəd | 2 il |
| 1.25. | Ağ rəngli ipək şərf | 1 ədəd | 2 il |
| 1.26. | Qara rəngli əlcək | 1 cüt | 4 il |
| 1.27. | Ağ rəngli əlcək | 1 cüt | 4 il |
| 1.28. | Qara rəngli corab | 4 cüt | 1 il |
| 1.29. | Qadınlar üçün dəri rəngli neylon corab | 4 cüt | 1 il |

| | | | |
|---|---|---|---|
| 1.30. | Qadınlar üçün dəri rəngli yarımyun corab | 2 cüt | 1 il |
| 1.31. | Qara rəngli tufli | 1 cüt | 1 il |
| 1.32. | Qara rəngli isti içlikli çəkmə | 1 cüt | 1 il |
| 1.33. | Qadınlar üçün qara rəngli uzunboğaz çəkmə | 1 cüt | 1 il |
| 1.34. | Qara rəngli göndən şalvar kəməri | 1 ədəd | 2 il |
| 1.35. | Qalstuk üçün sıxac | 2 ədəd | 5 il |
| **2. Baş və orta rəis heyəti və kiçik heyət üçün** | | | |
| 2.1. | Tünd-göy rəngli qış papağı | 1 ədəd | 3 il |
| 2.2. | Tünd-göy rəngli furajka | 1 ədəd | 1,5 il |
| 2.3. | Qadınlar üçün qalın parçadan şlyapa | 1 ədəd | 1,5 il |
| 2.4. | Qadınlar üçün nazik parçadan şlyapa | 1 ədəd | 1,5 il |
| 2.5. | Tünd-göy rəngli pilotka | 1 ədəd | 1,5 il |
| 2.6. | Tünd-göy rəngli istiləşdirilmiş gödəkcə | 1 ədəd | 4 il |
| 2.7. | Tünd-göy rəngli palto (poqonlarla, qol və yaxa nişanları ilə) | 1 ədəd | 4 il |
| 2.8. | Tünd-göy rəngli plaş | 1 ədəd | 5 il |
| 2.9. | Tünd-göy rəngli demisezon gödəkcə və şalvar | 1 dəst | 2 il |
| 2.10. | Qadınlar üçün tünd-göy rəngli demisezon gödəkcə və yubka | 1 dəst | 2 il |
| 2.11. | Tünd-göy rəngli gündəlik kitel və şalvar | 1 dəst | 2 il |
| 2.12. | Qadınlar üçün tünd-göy rəngli gündəlik kitel və yubka | 1 dəst | 2 il |
| 2.13. | Tünd-göy rəngli mərasim kiteli və şalvar | 1 dəst | 2 il |
| 2.14. | Qadınlar üçün tünd-göy rəngli mərasim kiteli və yubka | 1 dəst | 2 il |
| 2.15. | Tünd-göy rəngli pulover | 1 ədəd | 3 il |
| 2.16. | Ağ rəngli uzunqol köynək | 2 ədəd | 2 il |
| 2.17. | Açıq göy rəngli uzunqol köynək | 3 ədəd | 2 il |
| 2.18. | Ağ rəngli qısaqol köynək | 2 ədəd | 1 il |
| 2.19. | Tünd-göy rəngli qalstuk | 2 ədəd | 1 il |
| 2.20. | Tünd-göy rəngli trikotaj şərf | 1 ədəd | 3 il |
| 2.21. | Ağ rəngli trikotaj şərf | 1 ədəd | 3 il |
| 2.22. | Ağ rəngli ipək şərf | 1 ədəd | 3 il |
| 2.23. | Qara rəngli əlcək | 1 cüt | 3 il |
| 2.24. | Ağ rəngli əlcək | 1 cüt | 4 il |
| 2.25. | Qara rəngli corab | 4 cüt | 1 il |
| 2.26. | Qadınlar üçün dəri rəngli neylon corab | 4 cüt | 1 il |
| 2.27. | Qadınlar üçün dəri rəngli yarımyun corab | 2 cüt | 1 il |
| 2.28. | Qara rəngli tufli | 1 cüt | 1 il |
| 2.29. | Qara rəngli isti içlikli çəkmə | 1 cüt | 1 il |
| 2.30. | Qadınlar üçün qara rəngli uzunboğaz çəkmə | 1 cüt | 1 il |
| 2.31. | Qara rəngli göndən şalvar kəməri | 1 ədəd | 2 il |
| 2.32. | Qalstuk üçün sıxac | 2 ədəd | 5 il |
| **3. Bütün şəxsi heyət üçün səhra geyim forması** | | | |
| 3.1. | Tünd-göy rəngli hərbi nümunəli kepi | 1 ədəd | 2 il |
| 3.2. | Tünd-göy rəngli hərbi nümunəli qış papağı | 1 ədəd | 3 il |
| 3.3. | Tünd-göy rəngli isti içlikli gödəkcə | 1 ədəd | 5 il |

| | | | |
|---|---|---|---|
| 3.4. | Tünd-göy rəngli hərbi nümunəli köynək və şalvar | 1 dəst | 2 il |
| 3.5. | Tünd-göy rəngli mayka | 2 ədəd | 1 il |
| 3.6. | Sarı rəngli yay örtüyü (orta rəis heyəti və kiçik heyət üçün) | 1 ədəd | 3 il |
| 3.7. | Qara rəngli əlcək | 1 cüt | 3 il |
| 3.8. | Qara rəngli corab | 4 cüt | 1 il |
| 3.9. | Qara rəngli hərbi nümunəli uzunboğaz çəkmə | 1 cüt | 3 il |
| 3.10. | Xüsusi bel kəməri (orta rəis heyəti və kiçik heyət üçün) | 1 ədəd | 3 il |

**Qeyd.** Fərqlənmə nişanları ali, baş, orta rəis heyətinə və kiçik heyətə daxil olan vəzifəli şəxslərə hər geyim forması üçün 1,5 il müddətinə verilir.[3]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 26 fevral 2015-ci il tarixli **51** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 240**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 26 fevral 2015-ci il tarixli **51** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 240**) Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nın 1.1-ci, 1.26-cı, 1.27-ci, 2.7-ci, 2.24-cü bəndlərdə "**5 il**" sözləri "**4 il**" sözləri ilə, 1.3-cü, 1.6-cı, 2.3-cü bəndlərdə "**3 il**" sözləri "**1,5 il**" sözləri ilə, 1.4-cü, 1.5-ci, 2.2-ci, 2.4-cü, 2.5-ci bəndlərdə "**2 il**" sözləri "**1,5 il**" sözləri ilə, 1.14-cü, 1.15-ci, 1.23-cü, 1.24-cü, 1.25-ci, 2.13-cü, 2.14-cü bəndlərdə "**3 il**" sözləri "**2 il**" sözləri ilə, 1.22-ci, 2.19-cu bəndlərdə "**2 il**" sözləri "**1 il**" sözləri ilə, 1.32-ci, 1.33-cü, 2.29-cu, 2.30-cu bəndlərdə "**3 il**" sözləri "**1 il**" sözləri ilə, 1.34-cü, 2.31-ci bəndlərdə "**5 il**" sözləri "**2 il**" sözləri ilə, 1.35-ci, 2.32-ci bəndlərdə "**1 ədəd**" sözləri "**2 ədəd**" sözləri ilə, 3.10-cu bənddə "**6 il**" sözləri "**3 il**" sözləri ilə əvəz edilmişdir.

[2] 26 fevral 2015-ci il tarixli **51** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 2, maddə 240**) Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nın 11.7-ci, 1.10-cu, 1.11-ci, 1.18-ci, 2.9-cu, 2.10-cu, 2.17-ci, 2.18-ci, 3.3-cü bəndlərdən "**(poqonlarla və qol nişanı ilə)**" sözləri, 1.8-ci, 1.9-cu, 1.12-ci, 1.13-cü, 1.14-cü, 1.15-ci, 2.6-cı, 2.8-ci, 2.11-ci, 2.12-ci, 2.13-cü, 2.14-cü bəndlərdən "**(poqonlarla, qol və yaxa nişanları ilə)**" sözləri, 1.16-cı, 2.15-ci və 3.4-cü bəndlərdən "**(poqonlarla)**" sözləri çıxarılmışdır.

[3] 26 fevral 2015-ci il tarixli **51** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nın cədvəlin sonuna yeni məzmunda "Qeyd" əlavə edilmişdir.